**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

*Əlyazma hüququnda*

**SƏİD SƏMƏD OĞLU XOŞNİYYƏT**

# ORTA ƏSR BAZARLARININ BƏRPA VƏ İSTİFADƏ PROBLEMLƏRİ (TƏBRİZ ŞƏHƏRİNİN QƏDİM BAZARININ TİMSALINDA)

**İxtisas: 6401.01** Memarlıq nəzəriyyəsi və tarixi,abidələrin bərpası və rekonstruksiyası.

Memarlıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI- 2014**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq konstruksiyaları, abidələrin bərpası və rekonstruksiyası" kafedrasında yerinəyetirilmişdir.

| | |
|---|---|
| ***Elmi rəhbər:*** | Memarlıq doktoru, professor, Əməkdar memar<br>**Gülçöhrə Hüseyn qızı Məmmədova** |
| ***Rəsmi opponentlər:*** | Memarlıq doktoru, professor<br>**Nərgiz Cavadqızı Abdullayeva**<br>Memarlıq üzrə fəlsəfə doktoru, dosent<br>**Rizvan Mustafa oğlu Bayramov** |
| ***Aparıcı təşkilat:*** | Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu"Memarlıq abidələrinin qorunması və bərpası problemləri" şöbəsi |

Müdafiə "30____" __05__ 2014-cü il tarixində saat "____"-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.041 Dissertasiya Şurasının memarlıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təşkil olunmuş iclasında keçiriləcək.

Ünvan: 370073, Bakı şəhəri, A.Sultanova küç., 5, AMİU, korpus 1, III mərtəbə, aud 317.

Dissertasiya işi ilə AMİU-nun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"_____________ 2014-cü il tarixində göndərilmişdir.

FD 02.041 Dissertasiya
Şurasının elmi katibi,
memarlıq üzrə fəlsəfə
doktoru, dosent **S.İ.ALLAHVERDİYEVA**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.**Tarixi şəhərlər, xüsusilə də tarixi abidə və tikililər bəşəriyyətə məxsus olan aktivlərin son dərəcə əhəmiyyətlisidir və mədəni irs sayılır. Təəssüflər olsun ki, daima müasirliyə və yeniliyə doğru gedən cəmiyyətin bəzi fəaliyyət növlərini özündə sığışdıra bilməyən bu məkanlar maddi-mənəvi kapitalın cəmiyyətdəki varlığına bağlı olan özəl keyfiyyətlərə diqqətsizlik səbəbindən müasir dövrün tikililəri və fəaliyyət sahələrilə ayaqlaşa bilməyən tarixi məknalarla bağlı uyğunsuzluqların şəhərsalma üçün problem və maneə yaratması barədə baxışların formalaşmasına gətirib çıxarmışdır.

Şəhərin orijinallığı və milli identikliyi simvolu, olan və dəyərli mədəni irs sayılan tarixi məkanların cəmiyyət və ölkə üçün əhəmiyyəti hamıya bəllidir. Dəyərləri özündə birləşdirən və böyük əhəmiyyətə malik olan tarixi məkanlar şəhərə xüsusi mötəbərlik, ləyaqət və gözəllik bəxş edir. Lakin bütün bu keyfiyyət göstəricilərinə baxmayaraq, tarixi məkanlar və abidələr müxtəlif problemlərlə üz-üzədirlər.

Qeyd etmək lazımdır ki, bütün tarixi dövrlərdə daima cəmiyyətin həyatının ayrılmaz bir hissəsi olan qədim bazarlar şərq şəhərlərinin struktur və formasında olduqca böyük rola malikdirlər. Tarixi bazarlar tarixi şəhərlərdə iqtisadi fəaliyyətlərin istiqamətləndirilmə mənbəyi olmaqla yanaşı, sosial və mənəvi roluna malik idi və şəhər həyatının xüsiyyətlərini özündə birləşdirirdi. Cümə məscidi, mədrəsə (dini məktəb), su anbarı, karvansara və hamam kimi elementlərin hər biri bazara bir sıra ictimai, dini, mədəni və siyasi funksiyalar verirlər. Bazarın ictimai funksiyası bu tikilinin bütün əhaliyə yaxın və əlçatan olması üçün şəhərin mərkəzində yer almasına səbəb olmuşdur.

Müsəlman şəhərlərində xüsusilə orta əsrlərdə bazarın mövqeyi, formalaşması və inkişafı daima istehsalçılar və istehlakçılar arasındakı münasibətlərdən qaynaqlanmışdır. Buna görə də bütün qədim bazarların ilkin strukturu ticarət karvanlarının keçdiyi marşrutlarda formalaşmışdır. Bazarın iqtisadi və quruluş cəhətdən mütəşəkkil

formalaşması vahid məkan daxilində spesifik xüsusiyyətlərinə görə xidmət növləri və malların dəyər göstəricilərinə görə müxtəlif məkanlarda yerləşməsi üçün münasib imkan yaratmışdır.

Tarixi bazarlar tarix boyu müxtəlif səbəblərdən ziyan görmüş, dağıntılara məruz qalmış və yenidən bərpa edilmişdir. Müasir dövrümüzdə də bu qədim bazarlar öz tarixi-iqtisadi mahiyyətini qorumuş və hələ də şəhərlərin alver və ticarət məkanları kimi öz funksiyalarını davam etdirirlər. Bir məsələyə də toxunmaq lazımdır ki, müasir dövrdən irəli gələn ehtiyaclar üzündən qədim bazarların memarlıq formasında nəzərə çarpacaq dərəcədə ciddi struktur müdaxilələri meydana gəlmişdir ki, bu proses belə davam edərsə bazarların qədim və köhnəlmiş quruluşları müdaxilələrdən irəli gələn ciddi təsirlərə davam gətirməyərək məhv olacaq. Təbriz şəhəri İslam dövründən öncə zəif, İslam dövründən sonra isə sürətlə inkişaf edərək ipək yolunun üzərində tutduğu əvvəlki mövqeyindən başlayaraq bazar quruluşunun inkişaf trayektoriyasına uyğun şəkildə genişlənmişdir. Tədricən digər elementlər bazar kompleksi ətrafında formalaşmışdır.

Şəhərin əsas mərkəzi hissəsi, başqa sözlə desək bazar kompleksi öz funksional elementləri, eləcə də ətrafdakı məhəllələr ilə pərakəndə formada deyil, ictimai, iqtisadi, mədəni və iqlim nöqteyi-nəzərdən bir-birinə bağlı bir sistemi gündəmə gətirən vahid bir fəzada formalaşmışdır. Baş verən təbii fəlakətdən sonra isə hər zaman zəhmətkeş, əsil və çalışqan sakinlərinin köməyi ilə bərpa edilmiş, şərq və qərb dünyası arasında əlaqə yaradan körpü kimi daima parlamış və gündəmdə olmuşdur. Lakin Təbriz bazarı zaman-zaman Təbriz şəhərinin forması və quruluşundakı çoxsaylı dəyişikliklərə baxmayaraq, əvvəlki struktur və ərazisi ilə şəhərin ticarət mərkəzini təşkil edir. Bu kompleksin struktur və qurluşuna edilən müdaxilələr uyğunsuz və yöndəmsiz yamaqlar formasında təzahür edir. Müasir şəhərin dinamik həyatı, böyük insan kütləsinin hərəkəti adi günlərdə belə kompleksi müxtəlif müdaxilələrlə üzləşdirir və bir sıra problemlər yaradır. Müxtəlif amilləri nəzərə alaraq, belə nəticəyə gəlirik ki, bazar kompleksində bir sıra problemlər mövcuddur ki, məhz bu problemlər səbəbindən şəhərin böyük sahəyə və mürəkkəb

funksiyaya malik olan bu məkanında quruluş və struktur baxımından qarışıqlıq meydana gəlir və bu da qədim memarlıq kompleksinin bir çox təsirlər müqabilində müqavimət gücünü zəiflədir.

Beləliklə qədim bazarın qorunması və bərpası nəticəsində onun bütün funksiyalarının canlandırılması aktual bir problemdir.

**Sualın qoyuluşu:** Tarixi şəhərlərin və onların tarixi məkanlarının, xüsusilə şərq və musəlman olkələrində bazarların müasir şəraitdə geniş miqyaslı qorunma və istifadə problemləri yarandığı üçün onlar elmi araşdırmaların diqqət mərkəzində olmuş və bu problemlər tədqiqatçılar tərəfindən müxtəlif aspektlərdən vaxtaşırı öyrənilmişdir.

Elmi araşdırmalarda bu tarixi hissələrın həcm – məkan məsələləri tarixi baxımdan işıqlandırılmış, ənənəvi xüsusiyyətləri və təbii – iqlim şəraiti öyrənilmiş, və müasir tələblərə uyğun olması üçün təkliflər vermişlər. Yerli və əcnəbi alimlərin işlərində müxtəlif şəhərlərin tarixi hissələrinin, xüsusilə bu hissələrin əsas elementlərinin xarakterik xüsusiyyətləri üzə çıxardılmış və bədii – estetik təhlilləri aparılmışdır. XX– əsrin ortalarında eksperimental xarakter daşıyan müəyyən elmi-tədqiqatların meydana gəlməsi təsadüfü deyildi.

Azərbaycanın görkəmli alim – memarları: Salamzadə A.V., Axundov D.A., Bretanitski L.S., Dadaşov S.Ə., Əlizadə Q.M., Fətullayev Ş.S., Hüseynov F.M., Kərimov V.I., Qiyasi C.Ə., Mehdiyev A.M., Məmmədzadə K.M. öz əsərlərində şəhərsalmanın tarixi aspektlərini və ənənəvi memarlığı geniş təhlil etmişlər.

Bundan əlavə, tarixi şəhərlərin içtimai tikintiləri ilə yanaşı, həcm – məkan, abadlaşdırma və memarlıq xüsusiyyətlərini açıqlayan tədqiqatlar digər alimlər tərəfindən aparılmışdır: Həsənova A.Ə., Hüseynov F.M., Məmmədova G.H.,Əliyev N.Ə., Nağıyev N.H.,Abdullayeva N.C., Talıbov A.M., Əfəndizadə R.M., Mikayılova M.N., Avalov E.V., Bayramov R.M., Muradov V.Q., Orucov S.İ., Salayeva R.D., Vəkilova Ə.Z.və başqaları.

İranın tarixi şəhərlərinin ictimai tikintiləri ilə yanaşı, bazarların, həcm-fəza, quruluşu, memarlıq vəabadlaşdırma xüsusiyyətlərini araşdıran alimlərdən: Alempurrəcəbi M., Əbulziya F., Ətazade M., Qızılbaş M., Memarian Q., Məhəmmədmoradi Ə., Mətin Ə., Pirniya

M., Purhoseyn I., Rekui E., Rezazade M., Sultanzadə H., Zumrəşidi H. və başqalarının adlarını çəkmək lazımdır.Bu sahədə xarici ölkələrin alimlərinin elmi tədqiqatları da böyük önəm daşıyır.

Müəllif tərəfindən son bir neçə ildə tarixi hissələrdə və tarixi bazarlarda araşdırmalar aparılmış və bəzi xarakterik xüsusiyyətlər üzə çıxardılmışdır.

Yuxarıda adları çəkilən alim və memarların əsərlərində tarixi şəhərlərin ümumi şəhərsalma məsələlərinə, planlaşma xüsusiyyətinə və tarixi bazarların həcm-məkan xarakterinə toxunulsa da, onların yeni şəraitə uyğunlaşdırılması və fəaliyyət göstərməsi problemlərinə sərbəst bir mövzu kimi baxılmayıb. Halbuki, şəhərlərin həm funksional həyatını, həm də vizual obrazlarını formalaşdıran məhz bumemalrıq və şəhərsalma kompleksləridir.

**Tədqiqatın məqsədi**İran İslam Respublikasınınərazisindəki tarixi şəhərlərin bazarları və xüsüsilə Təbriz şəhərinin tarixi hissəsində yerləşən bazarı analiz etmək, həcm-məkan, bədii-estetik və funksional baxımdan daha dərin tədqiq etmək və müasir dövrdə mühafizəsi və istifadəsi üçün elmi-praktiki tövsiyələr işləməkdir.

Dissertasiyada aşağıdakı **əsas məsələlər** öz həllini tapmışdır:

I- Tarixi şəhərlərin ürəyində öz varlığını qoruyub saxlamış tarixi dəyərlərin, o cümlədən bazarların qorunmasıvəziyyətinin aydınlaşdırılması.

II- Şəhər miqyasında və ondan kənardakı ticari iqtisadi fəaliyyətlərin beşiyi olan Təbriz bazarının rolunun əvvəldə olduğu kimi canlandırılması, habelə bu bazarın tarixi şəhərin digər əsas məkanları ilə bağlılığının bərpa edilməsi yollarının müəyyənləşdirilməsi.

III- Tarixi funksiyasının canlandırılması və turizm imkanlarının inkişaf etdirilməsi məqsədilə zəruri struktur dəyişikliklərinin və təmir-bərpa işlərinin aparılması və mühüm elementlərinin bərpa edilməsinə dair tövsiyyələrin işlənməsi.

IV- İndiki və gələcək zamanda fəaliyyət sahələrinin ehtiyacları ilə ayaqlaşması üçün Təbriz bazarının lazımi və hərtərəfli qaydada təchiz edilməsi;

V- Bazar kompleksinin Təbrizin ticarət əməliyyatlarının beşiyi və şəhərin digər əsas və tarixi məkanları və elementlərini bir arada cəmləşdirən strateji amil olaraq rolunun gücləndirilməsi məqsədilə koordinasiya edilmiş tədbirlərin müəyyənləşdirilməsi.

VI- Ticarət və maliyyə əməliyyatlarının aparılması, turizmin təşkili, mədəniyyət üzrə fəaliyyətlərin həyata keçirilməsi, eləcə də qonaqların qəbulu və məskunlaşma məsələlərinin təşkili üçün çox funksiyalı mühitin yaradılması məqsədilə texnika və inşaat sahəsində mövcud olan müasir texnologiyaların tətbiq edilməsi;

VII- Mədəni irs sahəsindəki norma və prinsiplərlə təsdiq edilmiş tarixi quruluşu qoruyub saxlamaqla yanaşı, fövqəladə hadisələrdən irəli gələ biləcək təsirlər qarşısında bazarın elementlərinin konstruksiyalarının müqavimət gücünü artırmaq məqsədilə, zəif və həssas nöqtələrin tapılaraq möhkəmləndirilməsi üçün qədim və müasir metodların araşdırılması və təkliflərin verilməsi.

**Tədqiqat obyekti**Təbriz şəhərinin qədim bazar kompleksinin timsalında şərq bazar kompleksləridir.

**Tədqiqatın coğrafi sərhədləri** tədqiq olunan şəhərlərin tarixi hissəsi daxil olmaqla İran İslam Respublikasının ərazisini və bəzi Şərq ölkələriniəhatə edir.

**Tədqiqat metodu**Tarixi şəhərlərdə tarixi bazar komplekslərinin xüsüsilə Təbrzin tarixi bazar kompleksinin hərtərəfli naturra tədqiqinə vəfotofiksasiyamateriallarına, funksional xüsusiyyətlərinin və mexanizmlərinin araşdırılmasına, tarixi və müasir vəziyyətin müqayisəli analizinə, ayrı-ayrı obyektlərin dərin memarlıq-konstuktiv öyrənilməsinə əsaslanır.

Bununla yanaşı tarixi mənbələrdə, elmi ədəbiyyatda, dövlət qurumlarının memarlıq və şəhərsalma üzrə sənədlərində toplanmış materialların araşdırılması və istifadəsidə əsas tədqiqat üslubu kimi istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** İndiyə kimi milli və ya beynəlxalq səviyyədə tarixi məkanlarla bağlı tədqiqatlarda zaman amilindən irəli gələn mənfi təsirlərin qarşısının alınması məqsədilə tarixi abidələrin qorunub saxlanmasına, müvəqqəti yanaşma ilə tarix və mədəniyyət baxımından dəyərli abidələrin bərpa edilməsinə daha çox diqqət göstərilmişdir.

Təklif olunan bu tədqiqatda müxtəlif amillərin təsirləri müqabilində (hərəkət amili, əməliyyat və fəaliyyət amili, iqtisadi amil, cəmiyyət amili, infrastruktur amili, obyekt amili, mühit və quruluş amili, ekoloji amil, idarəetmə amili) tarixi forma və quruluşun bərpa edilməsi çərçivəsində bazar kompleksini təşkil edən bütün elementlərin xarici təsirlərə müqavimət gücünün artırılması, eləcə də bazarın inkişaf etməsi və hərtərəfli idarə olunması istiqamətindəki maneələrin aradan qaldırılması metodlarının araşdırılması vəzifəsi qarşıya qoyulmuşdur. Bu amil tədqiqatın elmi yeniliyini təşkil edir.

**Tədqiqatın təcrübi əhəmiyyəti** ondadır ki, qədim bazarların, xüsusilə Təbriz bazarının bərpası və ictimai, iqtisadi, mədəni və memarlıq quruluşunun qorunub saxlanılması üsullarının araşdırılmasından, eləcə də bu bazarların təhlükəsiz, cəzb edici və əlverişli bir məkan çərçivəsində gələcəkdə meydana gələ biləcək ehtiyaclar nəzərə alınmaqla hal-hazırki zamanın tələblərinə uyğun formalaşmasına bir örnək ola bilər. Bu tədqiqqatda bazarlarda, xüsusilə Təbriz bazarında müxtəlif memarlıq və konstruksiya elementlərinin araşdırılması və göstərilməsi digər tədqiqatçılar tərəfindən bir nümunə kimi istifadə oluna bilər.Bundan əlavə, yuxarıda göstərilənlərin əsas müddəaları öz təcrübi əhəmiyyətini bazarlarda aparılan renovasiya və bərpa işləri zamanı təsdiq edə bilər.

Dissertasiya işi giriş hissəsindən, üç fəsildən, bölmələr üzrə təyin edilən nəticələrdən, yekun nəticədən və elmi tədqiqatın mövzusu ilə bağlı problemləri açıqlayan 90 qrafiki cədvəldən, 140saylı ədəbiyyat siyahısından, 129 kompüter çap səhifəsindən ibarətdir.

**Aprobasiya**. Dissertasiyanın əsas nəticələri müəlif tərəfindən METU-nin elmi konfranslarında, eləcə də AzMİU-nin elmi əsərlərində və Təbriz və Urmiyyə jurnallarında çap olunmuşdur. Tədqiqatin bir sıra müddəaları tədqiqatçinin 2009-2013-cü illərdə yerinə yetirdiyi layihə işlərində öz əksini tapmişdır. Dissertasiya mövzusu üzrə müəllif tərəfindən 8 məqalə dərc olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**“TARİXİ ŞƏHƏRLƏRDƏ BAZAR KOMPLEKSLƏRİNİN MEMARLIQ SƏCİYYƏLƏRİ”** ADLI **I FƏSİLDƏ** İran İslam Respublikası ərazisində tarixi şəhərlər, tarixi hissələr və bu tarixi hissələrdə bazarların formalaşması və onları səciyyələndirən xüsusiyyətlər işiqlandırılır.

**1.1. Tarixi hissələrinin qorunma vəziyyəti və problemləri** işıqlandırılarkən tədqiq olunan şəhərlərdə tarixi məkanların tərifı, spesifik cəhətlərı, tarixi və mədəni əhəmiyyəti vədəyəri, xüsusiyyətləri və müasir dövrdə problemləri bəyan və təhlil edilir.

*Şəhərin tarixi məkanlarının spesifik cəhətləri arasında aşağıdakıları vurğulamaq olar.*

- Milli atributlar və orijinal xüsusiyyətlərə malik şəhər quruluşu.
- Orjinal memarlıq və tarixi abidələrin sıx yerləşməsi.
- Müasir infrastukturun olmaması yaxud zəifliyi.

Tarixi hissələr tarix struktur və mədəniyyət baxımından malik olduqları dəyərlərə görə əhalinin mentalitetini və milli xüsusiyyətlərini özündə təcəssüm etdirməklə yanaşı, inkişaf etməkdə olan şəhərin daxili formasının qorunub saxlanılmasına xidmət edir və eləcə də şəhərin yöndəmsiz və uyğunsuz inkişafını məhdudlaşdırır.

Dissertasiyada Səfəvilər dövründən hal-hazırki iyirmi birinci əsrə kimi İranın tarixi şəhərlərin inkişaf mərhələləri müəyyənləşdirilir, eləcədə son bir neçə onillikdə bu sahədə baş verən dəyişikliklər araşdırılır. Tarixi şəhərlər və şəhərlərin strukturanalizi aşağıdakı yeddi dövrü qeyd etməyə imkan verir.Birinci dövr: Səfəvi və Qacar dövründən 1921-ci ilə qədər.İkinci dövr: 1925-1941 (Birinci Pəhləvi).Üçüncu dövr: 1941-1953.Dördüncü dövr: (1953-1966). Beşinci dövr: (1966-1979).Altıncı dövr: (1979-1984).Yeddinci dövr: (1984-cü ildən indiyə qədər).

Şəhərin tarixi məkanları insani miqyasına, piyadaların hərəkəti, ənənəvi iqtisadiyyat və memarlıq amillərinə əsasən formalaşır. Şəhərlərin müasir inkşaf prosesləri sənaye istehsalı sahələri, eləcədə nəqliyyat şəbəkəsinin inkişafına söykənir. Bu vəziyyət tarixi hissələr və müasir məkanlar arasında bir ziddiyyət və struktur təzadları meydana gətirir.

**1.2. Tarixi hissələrin formalaşmasında qədim bazarların şəhərsalma və memarlıq nöqteyi-nəzərindən rolu** araşdırılır və bazar elementləri izah olunur. Bazar ən başlıca iqtisadi və sosial rıçaqlardan sayılmaqla yanaşı tarixi şəhərin strukturunu özündə əks etdirir. Bazar memarlıq və şəhərsalma abidəsı olaraq şəhərlərin memarlıq və şəhərsalma strukturunda mühüm yer tutur və inşaat sənətinə böyük təsir imkanına malikdir.

Tarixi hissələrdə bazarların dəyəri və əhəmiyyəti çox böyükdür. Tarixi şəhərlərdə əsas və daimi bazarlar adətən ən strateji yolların üstündə yerləşir və giriş qapısından başlayaraq şəhərin mərkəzinə qədər uzanaraq formalaşır.

Şəhər darvazasından başlanaraq şəhər mərkəzinə doğru gedən bazar yolu əslində əsas əlaqə istiqaməti və gediş-gəliş yoludur. Bazar kompleksində əsas və köməkçi yolları əksər hallarda üstü bağlı olmaqla yanaşı memarlıq nümunələrindən olan tağ və günbəzlərdən ibarətdirlər.

Bazarlar memarlıq kompozisiyalarına görə iki qrupa: xətt formalı və mərkəzi formalı qruplara bölünürlər.

Tarixi bazarlar əsasən aşağıda göstərilən şəhərsalma elementlərindən ibarətdir: cərgə(əsas yol), köməkçi yol, dalan, dördyol, meydan, dükan qabağındakı məkan və sairə.

Tarixi bazarın memarlıq elementləri: hücrə (dükan), sara ya xanlar (pasaj), karvansaralar, tim və timçələr, Qeysəriyyə (şah bazarı), xanbar və ya kalanbarlardır (anbarlar).

Müxtəlif mühitlərdə və iqlim qurşaqlarında struktur çəhətdən bazarlar arasında fərqli cəhətlər vardır. Müxtəlif iqlimlərində tarixi bazarların fiziki xüsusiyyətlərininformalaşması tədqiqatda bir neçə qrupa bölünür.

**1.3.Orta əsr şəhərlərində tarixi bazarların plan quruluşu, strukturu və memarlığı**araşdırılır və təhlil edilir.

İstanbulda (Türkiyə) "Kapalı çarşi" bazarının indiki formaya düşməsi üçün uzun əsrlər arxada qalmışdır. Onun müxtəlifhissələri memarlıq üslubu baxımından biri-birindən fərqlənirlər. Bu qədim kompleks və onun pərakəndə strukturu bazarda hərəkətin dinamika-

sını təmin edərək öz qədim strukturu və quruluşu ilə tarixi bir məkanı qoruyub onun dinamik biznes mərkəzinə çevrilməsinə şərait yaradır.

Tehran bazarı.Bu bazar İranın məşhur bazarlarından biridir. Bu məkan şəhərin ticari fəaliyyətlərinin ürəyi sayılır və siyasi, dini, ənənəvi iqtisadi funksiyaları ilə daha çox əhəmiyyət kəsb edir. Böyük Tehran bazarı qədimiliyi, genişliyi, coğrafi mövqeyi və paytaxtda yerləşdiyinə görə iqtisadi vəziyyətinə görəölkənin digər bazarlarından daha çox əhəmiyyətə malikdir. Bazarın yerləşdyi məkan şəhərin tarixi və qədimi yeridir və keçmişdəki kimi ən mühüm ticarət və biznes mərkəzidir. Bazarın əsas kompozisiya xüsusiyyəti onun elementlərinin bir xətt üzrə yerləşdirilməsidir.

Zəncan şəhərinin qədim bazarının tarixi kompleksi şəhərin mötəbər şəhərsalma faktorlarından biri olmaqla yanaşı iqtisadi, mədəni, dini mərkəz kimi şəhərin inkişaf və tərəqqisi üçün fundamental rola malik olan özünəməxsus məkanlardan biridir.

Ərdəbil bazarı XII-XIII əsrlərdə özünün birinci çiçəklənmə və inkişaf dövrünü yaşamış və səfəvilərin hakimiyyəti dövründə isə daha çox inkişaf edərək genişlənmişdir. Şəhərsalma nöqteyi-nəzərindən Ərdəbil bazarı mərkəzləşmiş kompozisiyaya malikdir və bir meydanın ətrafında formalaşmışdır.

Urmiyanın qədim bazarı şəhərin tarixi yerində, cənub-şərq hissəsində yerləşir. Bazarın indiyə qədər qorunub saxlanılan ən qədim hissələri səfəvi dövrünəaiddir. Mərkəzləşmiş kompozisiyaya malik olan Urmiya bazarında hər bir cərgə və bölmə öz dövrünə xas olan üslub və ahəngi təcəssüm edir.

**“TƏBRİZ ŞƏHƏRİNİN BAZAR KOMPLEKSİNİN MEMARLIQ XÜSUSİYYƏTLƏRİ”**adlı **II fəsildə**Təbriz şəhərinin və bazarının tarixi keçmişi işiqlandırılır və ikinci bölmədə tarixi bazarın memarlıq və konstruksiyası təhlil olunmuşdur.

**2.1. Təbriz bazarının tarixi strukturunun formalaşma mərhələləri** araşdırılarkən, müəyyən edilir ki, Təbriz bazarının formalaşması vəonunstrukturunda baş verən dəyişikliklər Təbriz şəhərinin inkişafının tarixi dövrləri və şəhərsalma xüsusyyətlərilə sıx bağlıdır.

Bazarın tarixi inkişaf dövrləri qədim Təbriz şəhərinin formalaşması və inkişaf mərhələlərilə üst-üstə düşür. Arxeoloji qazıntılar Təbriz şəhərinin tarixinin eramızdan çox əvvəl başlanmasını sübut edir. Maraqlıdır ki, ən qədim şəhər qalıqları məhz bazarın yerləşdiyi ərazidə aşkar edilmişdir.

Tarixi mənbələr ərəb xilafəti dövründə Təbrizin formalaşmış böyük bir şəhər olması barədə məlumatlar verirlər. Cümə məscidinin ətrafındakı qazıntılar bazarın bu dövrdə artıq mövcud olmasını təxmin etməyə imkan verir.

XI-XIII əsrlərdə Təbriz şəhəri bölgənin hakimiyyət mərkəzi olaraq genişlənir vəElxanilər (Abaqa Xan) tərəfindən paytaxt şəhəri seçilir. Ərqunşah zamanı Ərğumiyyə şəhərciynin yaradılması, Qazan Xan dövründə Şam Qazan və Rəbb-i-Rəşidi şəhərciklərinin inşası, eləcə də "Əlişah" qala kompileksinin inşası, Təbrizi siyasi iqtisadi baxımdan dünyanın ən önəmli və böyük şəhərlərindən birinə çevirmişdir. Bu dövrdə Təbriz bazarı orta əsr bazarlarının ən önəmli nümunəsi olaraq, şəhərin ticarət, ictimai, dini mərkəzi rolunu oynayırdı.

XIV əsrdən XV əsrə qədər Qaraqoyunluların hakimiyyətə gəlişi ilə Təbriz yenidən paytaxt şəhər statusunu almışdır. Bu zaman "Cahanşah"(Goy məcid) məscidinin inşası həyata keçirildi. Uzun Həsənin rəhbərliyi altında Ağqoyunluların hakimiyyətə gəlməsi, bazar kompileksinin şimal tərəfində Sahibabad (Həsən padşah) meydan kompileksinin inşası, dövlətxana və divanxananın "Şeşgilan" deyilən yerdən "Sahibabad" kompileksinə köcürülməsi ilə müşayiət edilir. Sahibabad"ın geniş meydanı ətrafında hökumət və dini binaların cəmləşməsi, "Acı çay"ın şimalında Təbrizin tarixində ən muhum şəhər qütbünü formalaşdırır.

Həsən Paşa Ağqoyunlu tərəfindən 8 güşəli planlı Qeysəriyyə bazarının salınması tarixi bazarla Sahib abad meydanını birləşdirərək ölkə və transregional əhəmiyyətli böyük bir çoxfunksiyalı mərkəz kompleksi yaradır.

XV-XVIII əsrlərdəSəfəvilərin hakimiyyətə gəlişi ilə Şah İsmayıl tərəfindən Təbrizin paytaxt seçilməsi şəhərin genişlənməsi və yeni tikililərin meydana gəlməsinə səbəb olur. Təbrizin Osmanlılar tərə-

findən ələ keçirilməsi ilə paytaxtın Qəzvinə və daha sonra İsfahana köçürülməsi bu prosesi dayandırır. XV əsrin sonundan etibarən “Sadiqiyə” kompileksi tədricən Sahibabad kompileksinin alternativinə çevrilir. 1772-ci ildə baş verən zəlzələ nəticəsində Təbrizin dağılması bir çox mühüm dini və ictimai binaların, eyni zamanda tarixi bazarın yerlə yeksan olmasına gətirib çıxarır.

XVIII əsrdə zəlzələdən sonra şəhər və bazar kompileksi əvvəlki formasının saxlanılması şərti ilə bərpa edilir. Təbrizin Nəcəf Qulu Xan tərəfindən inşası, eləcə də bazarın hal-hazırki formasına salınması, Təbrizin Qacarların Vəliəhdinin qaldığı məkan olaraq seçilməsi və İranın II şəhəri elan olunması tarixi bazarın yenə də mühüm bir mərkəz kimi bütün funksiyalarının bərpa olunmasını təmin edir.

I Pəhləvinin hakimiyyəti illərində müasir yolların və küçələrin salınması ilə şəhərin tarixi strukturunun dağıdılması və bir sıra əhəmiyyətli elelmentlərinin aradan getməsi, modern şəhər quruluşunun tətbiq edilməsi nəticəsində tarixi bazarmüxtəlif hissələrə parçalandı.

**2.2. Təbriz bazarının plan-məkan quruluşu və memarlığının** araşdırılması və təhlili göstərir ki, Təbriz bazarı regionun və dünyanın ən qədim bazarlarından biridir. Bu bazar yalnız duzbucaq formasında genişlənməmişdir, bəlkə dörd tərəflə əlaqəli olan bir neçə əsas cərgə(rastə) və köməkçi cərgələrin (köməkçi rastələr) formalaşması ilə daha da genişlənmişdi. Təbriz bazarının əzəmətli memarlıq- iqtisadi kompleksinin yerləşdiyi ərazi 29 hektar sahədən ibarətdir və bu ərazinin təqribən 85% ticarət sektorunun payına düşür.Təbriz bazarı çoxsaylı paralel və perpendikulyar cərgələrdən təşkil olunan biri-birilə əlaqəli bir şəbəkədir.

Təbriz bazarının memarlıq xüsusiyyətlərindən biri kərpic konstruksiyaların müxtəlifliyindən ibarətdir. Bu bazarın tikintisi zamanı istifadə olunan kərpic materiallar son dərəcədə zərif, incə və çeşidli formada işlənmişdir. Cərgələr, dalanlar, timçələr, karvansaralar, məscidlər və hamamlar mükəmməl və gözəl qaydada biri-birinə birləşmiş formada düzülmüşlər. Bu baxımdan da şəhərin strukturunu nəzərə alaraq, Təbriz bazarı qədim məhəllələrlə əhatə olunmuşdur.

Bazarın əsas keçid yollarının üzəri günbəzlərlə örtülmüşdür. Hündürlüyü çox olmayan bu günbəzlər Təbrizin malik olduğu iqlim quruluşu üçün ən optimal və gözəl örtük sayılır. Hər bir günbəz adətən iki mağazanın qarşı hissəsinin üstünü örtür. Bu günbəzlərin ortasında açılmış pəncərə-bacalar işıq sütunları yaratmaqla bazar daxilində təbii işıqlandırmanın və hava axınının effektli tənzimlənməsi işində olduqca mühüm rola malikdirlər.

Təbriz bazarının cərgələri və dalanlarının spesifik xüsusiyyətlərindən biri onların dam örtüyünün olmasıdır. Cərgələrin uzunluğu 3679 metrdir və 15013 kv/m sahəni əhatə edir. Dalanların uzunluğu 927 metrdir və 4141 kv/m sahəni əhatə edir.

Cərgələr və dalanlar düz xətt boyunca təkrar olunangünbəzlər və tağların ahəngini yaradır. Kolonbu adlanan bu günbəzlər planda kvadrat və ya kvadrata yaxın olan əsasda ucaldılan dörd çatma tağ (bu növ tağlar təvizə adlanır), üzərində yarım sfera şəklində qurulmuşlar. Cərgə və dalanlar boyu tağlar və günbəzlərin təkrarlanması nizamlı və ahəngli bir məkanın meydana gəlməsinə səbəb olur. Bu növ günbəz (kolonbu) qeyri-müntəzəm dördbucaq üstünü örtməklə cərgə və dalanların düz xətt boyu uzanan istiqamətdən, mülayim fırlanmayla,insanı uzun və yorucu perspektivdən qurtatır. Təbriz bazarı sərt iqlim zonasında yerləşdiyindən və burada ticarət mübadilələrinin genişliyindən sıx, mürəkkəb və qapalı struktura malikdir. Cərgə və dalanların tavanının hündürlüyü ən çoxu 6 metr, onların eni isə 2-5.5 metr arasında dəyişir.

Səralarda mərkəzi həyətin olmasını və onların dörd tərəfində hücrələrin yerləşdiyini nəzərə alaraq, həyətin üstü qapalı deyildir. Lakin hücrələrin və səraların giriş hissələrinin üstü qapalıdır.

Təbriz bazarında timçələrin konstruksiya sistemini onların məkan (fəza) həndəsə forması ilə bağlıdır. Bazardakı timçələr düzbucaqlı və ya xaçvari formadadır. Düzbucaq formalı timçələrdə tavan konstruksiyası dalanlar və cərgələrdə olduğu kimidir və onlarda tağ (tağ-təvizə) sistemindən istifadə olunmuşdur.

Xaç formalı timçələr Təbriz bazarının memarlıq sənətində konstruksiyanın və dekorun ən gözəl sintezini yaradır. Bu mə-

kanların həndəsi quruluşu səkkizbucaq və yarımsəkkizbucaq formalıdır.Səkkiz və yarımsəkkiz formalıplan quruluşu olan timçələrin fəza quruluşu kəsişən tağbəndlərlə və nervyurlərlə forma alır. Əslində nervyur (tağ bəndi, kar bəndi) timçənin əsas konstruksiya və strukturunu formalaşdırır və timçənin günbəzi nervyur (tağ bəndi, kar bəndi) üzərində oturur. Timçələrin örtüyünün mərkəzində cəmləşən nervyurlar vahid bir günəş şəkilində naxış (şəmsə) təşkil edir. Bu nervyurlərəslində məkan həndəsə mühitini müəyyənləşdirilməsində konstruktiv rol oynayır və eyni zamanda timçənin günbəzində bəzək kimi görünür. Yəni həm memarlıq-konstruksiya və həmdə bəzək elementi rolunu oynayır.

**"Təbriz bazarının renovasiya və müasir dövrdə istifadə problemləri"**başlığı altında verilən **III fəsildə**Təbizin tarixi hissəsı və bazarının bərpa və istifadə problemləri tədqiq olunmuşdur. Tarixi bazarın problemləri müəyyən edildikdən sonra, bu problemlərin həlli üçün münasib tədbirlərin zəruriliyi göstərilib.

**3.1. Təbriz şəhərinin tarixi şəhərsalma strukturunun qorunma problemləri** Tədqiqat işinin bu bölümündə Təbriz şəhərinin tarixi hissəsininnizamlama mexanizmlərinin müəyyən edilməsi üçün ilk növbədə şəhər mərkəzinin xüsusiyyətləri və üzləşdiyi problemlər struktur və funksiya baxımından qiymətləndirilmiş və bunun üçün aşağıdakı fenomenlər analiz və təhlil edilmişdir: Müasir şəhərin ümumi quruluşu ilə ziddiyyət, bir çox fəaliyyətlərin bir məkanda cəmləşməsi, iqtisadi tənəzzülün yaratdığı problemlər, binaların fiziki keyfiyyətinin aşağı düşməsi və dayanıqlılığının zəifləməsi, məhəllə və yaşayış massivlərinin müasir şəraitdə dəyərdən düşməsi, ictimai funksiyaların tənəzzülü, ekoloji problemləri, nəqliyyat problemləri və hərəkətin çətinləşməsi.

**3.2. Təbriz bazarının mövcud vəziyyəti.** Təbriz bazarının üzləşdiyi əsas problemlərin bəyan edilməsinə səy göstərilmişdir. Bu problemlərin dəqiq öyrənilməsi onların ən optimal həll yollarının müəyyənləşdirilməsi və münasib layihənin ortaya qoyulması işində yardım edə bilər.Tarixi bazarınəsas problemləri aşağıdakılardı:

-Bazar kompleksi müasir cəmiyyətin gündəlik həyatından tam olaraq ayrılıb və öz ətrafındakı obyektlərlə bağlantıya malik deyil.

- Bazarın ətrafında məskunlaşmış və bazarın fəaliyyəti ilə əlaqəli olan yerli sakinlərin yerdəyişməsi, onların yerinə həmin məkanlarda əksər hallarda qaçqınlar, kəndlərdən gələn əhalinin yerləşməsi demoqrafik durumun dəyişməsinə səbəb olmuşdur.
- Daha mötəbər fəaliyyətlər tədricən bazar çərçivəsindən kənara çıxır və öz yerini aşağı səviyyəli fəaliyyətlərə verir.
- Şəhərin mühəndis kommunikasiya şəbəkəsinin keyfiyyət baxımdan effektliliyinin aşağı düşməsi yanğın, su basma və dağıntı hallarının baş verməsi və təhlükəli vəziyyətin yaranması ilə nəticələnir.
- İcra Hakimiyyəti, inşaat və memarlıq üzrə digər aidiyyətli qurumlar arasında aktiv və effektli iş birliyi və əməkdaşlıq yoxdur, bazarla bağlı fəaliyyət koordinasiya edilmir.
- Şəhər əhalisinin və bütövlükdə ictimayətinbazar kompleksinin inşaat, abadlıq və idarəetmə işlərində iştirakı təmin edilmir.

**3.3. Bazarın və onu əhatə edən tarixi hissənin qorunması, konservasiyası, bərpası, istifadəsi üzrə təkliflər.**Təkliflərin irəli sürülməsindən öncə tədqiq olunan Təbriz şəhərinin bazar kompleksinin müasir vəziyyəti, qorunma və istifadə problemləri dərindən öyrənilmiş və analiz edilmişdir. Kompleksin funksiyalarının bərpaedilməsi üçün quruluşuna zəruri müdaxilələrin istiqaməti müəyyən edilmişdir.

Təkliflərin daha əsaslı hazırlanması üçün renovasiya proresi bir neçə mərhələyə bölünmüşdür.

*Bazar kompleksində olan təhlükələrin və risklərin aradan qaldırılması.* Bu iş bazarın həyatının davam etməsi üçündür (onun dayanıqlığının təmini) və texniki, təhlükəsizlik və mühafizə səbəblərindən irəli gəlir.

*Qoruyucu tədbirlər.* Bu işlərin əsas məqsədi bazar kompleksinə yeni müdaxilələrin qarşısını almaq, dağılma və sökülmə proseslərini dayandırmaq, əsassız yenidənqurma işlərinə yol verməməklə bazarın tarixi quruluşunu və memarlıq dəyərini qorumaqdan ibarətdir. Kompleksə daxil olan binalarda və tikililərdə zəruri möhkəmləndir-

mə və bərkitmə işlərinin aparılması, tarixi abidənin dekorativ xüsusiyyətlərinin qorunması üçün xüsusi tədbirlər görülməsi tövsiyyə edilir.

*Bazar kompleksində memarlıq baxımından təmir-bərpa işləri.* Plan-məkan quruluşunun bərpa edilməsi üçün struktura uyğun olmayan tikililərin sökülməsi və tarixi strukturun açılması vacibdir. Kompleksə daxil olan bütün bina və tikililərdə təmir, konservasiya yaxud bərpa işşləri aparılmalıdır. Bu zaman hər bir abidənin tarixi memarlıq və üslub xüsusiyyətlərinin saxlanması vacibdir. Bərpa işlərində anastiloz metodundan geniş istifadə olunması təklif edilir.

Kompleksin dayanıqlılığını təmin etmək məqsədilə bir sıra mühəndis-texniki işlərinə, o cümlədən, drenaj sisteminin, yağış və kanalizasiya sularının kənarlaşdırılması sisteminin qurulması, bazar içi yolların və keçidlərin döşənməsi vacibdir.

Kompleksi əhatə edən ərazilərdə küçə şəbəkəsinin tarixi mühitin qorunma tələblərinə uyğunlaşdırılması məqsədilə kompleksi əhatə edən yolların daşlarla döşənməsi, yollarda nəqliyyat hərəkətinin dayandırılması yalnız piyadaların və velosipedçilərin hərəkətinə icazə verilən, ətraf ərazilərdə çoxmərtəbəli dayanacaqların inşası təklif olunur. Bazar ətrafında yaşayan əhalinin mədəni-məişət ehtiyaclarının ödənilməsi üçün müvafiq yenidənqurma tikinti və abadlıq işlərinin aparılması zəruridir.

*Təbriz bazarında fəaliyyətlərin (funksiyanın) canlandırılması.* Şəhər və region səviyyəsində ticari və kommersiya fəaliyyətlərinin əsas mərkəzi qismində Təbriz bazarının rolunun canlandırılması üçün onun tarixi mərkəzin digər mühüm ocaqları ilə əlaqəli olması zəruridir. Eyni zamanda kompleksə daxil olan bütün obyektlərin (ticarət, dini, mədəni təyinatlı binaların, hamamların, karvansaraların) öz funksiyasına uyğun yaxud yeni funksiyada fəaliyyətini bərpa etmək lazımdır. Bunun üçün zəruri uyğunlaşdırma işlərinin aparılması tövsiyyə edilir.

## TƏDQİQATIN ƏSAS NƏTİCƏLƏRİ VƏ YEKUNU:

Aparılan kompleks tədqiqatların sonunda dissertasiyada aşağıdakı əsas nəticələr çıxarılmış və təkliflər irələ sürülmüşdür:

1- Şəhərlərin tarixi hissələrinin şəhərsalma problemləriiçində münasib kommunikasiya və nəqliyyat şəbəkələrinin, mühəndis sistemlərinin olmamasını qeyd etmək lazımdır. Şəhərlərin mərkəzində mürəkkəb planlı sıx kvartallardan ibarət bu hissələrin daxilində səhiyyə, təhsil, mədəniyyət və başqa xidmətlərin az və zəif olması da müasir həyat səviyyəsini təmin etmir.

2- Tarixi bazarlar iqlim və yaşam şəraitilə bağlı olaraq, onların təsiri və tələblərinə uyğun formalaşmışdır. Belə ki, müxtəlif bölgələrdə və şəhərlərdə bazarlar alver və ticarət mərkəzi olmaqla yanaşı, eləcə də ictimai yaşamın ürəyi olaraq fəaliyyət imkanlarına malikdir və müxtəlif mühitlərdə və iqlim qurşaqlarında struktur çəhətdən fərqlidirlər.

3- Tarixi bazarların araşdırmasında 4 növ bazar qeyd edilir. Bu araşdırmada Urmiyyə bazarı mərkəzləşmış bazarlar tipinə aid edilir. Tehran, Zəncan və Ərdəbil bazarları isə xətt formalı bazarlardan sayılırlar.

4- Təbriz şəhərinin inkişafının tarixi laylarının tədqiqi və bazarın ərazisində aparılan arxeoloji araşdırmalar Təbriz şəhərinin ilk tarixi quruluş məkanının bazarın daxilində cümə məscidinin ətrafında yerləşməsi nəticəsinə gətirir. Demək olar ki bu məkan, yəni bazarın qərb hissəsi həm Təbriz şəhərinin və həm də bazarın ən qədim hissəsidir.

5- Həsən Paşa dövründə şəhərin hökümət mərkəzi bazarın şimal hissəsində yer tapır. Bu dövrdə meydan, bazar, din mərkəzi və hökümət sarayı birləşir və bir vahid məkan yaranır. Bu dövrdən sonra Təbrizdə yaranmış ictimai-dini-ticarət funksiyalı mərkəz strukturu başqa şəhərlərdə də və öz əksini tapır. Misal üçün İsfahanda Nəqş-i-Cəhan və Qəzvində Sepəh meydanını göstərmək olar.

6- Təbriz bazarının strukturunun bazarda bütün memarlıq və şəhərsalma elementlərinin bir vahid kompleks kimi birləşməsi

nəticəsinə gətirib çıxarır. Bu vahid kompleks Təbriz şəhərinin əsas yollarının birləşdiyi bir məkan olaraq tarix boyunca bu xüsusiyyətini saxlamışdır.

7- Təbriz bazarının memarlıq quruluşunun əsas elementi timçələrdir. Bu məkanlarda memarlıq formasının və konstruktiv strukturunun vəhdəti özünəməxsus həndəsi dekor kompozisiyasını yaradır. Bu əsil mənada memarlıq və konstruksiyanın vahid və harmonik birliyi məkanı sənət əsərinə çevirir.

8- Təbriz bazarında tağlar və günbəzlər əsas konstruktiv elementlər kimi istifadə olunurlar. Tağların, tağbənd və günbəz konstruksiyaların müxtəlifliyi və forma zənginliyi Təbriz bazarının ən mühüm xüsusiyyətlərindəndir. Müxtəlif günbəzlər və tağbəndlər biri-birindən fərqlənir və bu fərqlər başqa bazarlarda rast gəlmiyən nümünələryaradır.

9- Təbriz üçün canlı olan tarixi mərkəzin müasir şəhərsalma strukturuna inteqrasiya etməsi üçün böyük şəhər və qədim mərkəz arasında çoxşaxəli əlaqələrin yenidən qurulması lazımdır ki, bununla da tarixi sturukturun qorunmasına və funksiyalarının tam təmin edilməsinə yönəlmiş dəyişikliklərin həyata keçirilməsinə imkan yaransın. Bazar daxil olan tarixi mərkəzin şəhərin digər fəaliyyət mərkəzləri ilə bağlılığı onun Təbriz şəhərinin inkişafı üzrə proqramlara daxil olmasına şərait yaradacaq.

10- Təbriz bazarı və onun ətraf obyektləri tarixi və mədəni dəyərlərini təcəssüm edən şəhərin simvolu və onun sakinlərinin mentalitetinin və kimliyinin göstəricisi olan amil və elementlər sayılırlar. Lakin, Təbrizin tarixi hissəsinin ictimai və mədəni keyfiyyətlərinin tənəzzülə uğraması, bütövlükdə şəhəri tarixi-mədəni tənəzzül ilə üz-üzə qoyur. Təbriz şəhəri bu kimi xoşagəlməz hallardan əziyyət çəkir.

11-Bazarın fəaliyyətinin canlandırılması əsas vəzifədir. Bütün növ fəaliyyətlərin bərpası və onlara şəraitin yaradılması bazarı sahibkarlar üçün cəlbedici məkana çevirə bilər və bu halda bazarın qorunması, bərpa işlərinin yerinə yetirilməsi və müasir uyğun-

laşdırma işləri əhalinin iştirakı ilə, özəl sərmayənin cəlb edilməsi nəticəsində və dövlətin nəzarəti altında həyata keçə bilər.

12- Bazar kompleksinin tarixi və memarlıq xüsusiyyətlərinin tanınması ilətəmir-bərpa işlərı özünəməxsus memarlıq dili ilə müəyyənləşməlidir və tarixi və mədəni dəyərə malik məkanların rekonstruksiya və bərpa edilməsi əsil məqsəddir. Bu əlaqəli və birləşmiş kompleksdə elə məkanlar və tikililər vardır ki, bu məkanlarda keyfiyyət göstəricilərinin daha çox azalması və aradan getməsi baxımından, eləcə də tarixi dəyərinin nisbətən daha az olması nöqteyi-nəzərindən daha genişmiqyaslı müdaxilələr etmək və təmir-bərpa işlər aparmaq mümkündür.

## İŞIN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

Hazırki tədqiqat işi İran və Şərq olkələrində tarixi bazarlarının mövcud problemlərin işiqlandırması və bu problemləri aradan qaldırılması məqsədilə həyata keçirilmişdir. Tədqiqatımızdan əldə olunmuş nəticə aşağıdakı sahələrdə istifadə olunmuşdur:

- 2010-2011-ci illər ərzində Urmiyyə şəhərində tarixi bazarınbərpa və rekonstruksiya işlərində.
- 2009-2010-cu illər ərzində Tehran şəhərində tarixi bazarın bərpa və rekonstruksiya işlərində.
- Urmiyyə Universiteti və İslam Azad Universitetinin Urmiyyə filialında, şəhərsalma və memarlıq fakultəsinin bakalavr və maqistr pillələrindədərslik materialı kimi.

***DISSERTASİYA İŞİNİN MÖVZUSU ÜZRƏ AŞAĞIDAKI ƏSƏRLƏR ÇAP OLUNMUŞDUR:***

1. Xoşniyyət S. Orta əsr bazarlarının strukturunda konsepsiya və təriflər //Elmı əsərlər, № 2 , AMİU , Bakı : 2010, s.31-38.

2. Xoşniyyət S. Təbriz bazarının quruluşuvə formalaşması //Elmı əsərlər, № 1,AMİU,Bakı: 2011, s. 40-45.

3. Xoşniyyət S. İslam şəhərlərində tarixi bazarlarının müasir dövrdəki problemlərı // Urbanizm jurnalı , No17 , AUC , Bakı : 2011 , s. 157-161.

4. Xoşniyyət S. İranın müxtəlif iqlimlərində bazarların fiziki tədqiqatı // Urbanizm jurnalı , No18 , AUC , Bakı : 2013 , s. 136-140.

5. Xoşniyyət S. Role of historic Bazaars in formation of historical area and cities // METU Architectural History Graduate Researches symposiium-VIII , METU ,Turky ,Ankara : 2011.

6. Xoşniyyət S and Şəhri K.Evolution and transformation of bazaar in urban fabric during the first Pahlavi period (case study old bazaar of Urmiya)//National seminar conference on the Iranian city of historical, cultural and religious. 8 September 2012- İran, Urmiya: 2009.

تحول ودگرگونی بازار در مفهوم کالبد شهری ایران در دوره پهلوی اول (نمونه موردی بازار شهر ارومیه)، سعید خوش نیت – کاوس شهری، کنفرانس بین المللی شهر ایرانی، ارومیه، مهر 1391

7. Xoşniyyət S. Issues and problemsof urban fabric and Preservation this area // Duman Jurnalı, № 3, Təbriz: 2010, s.15-18.

نگاهی به مسائل ومشکلات بافتهاي تاريخي ونگهداري از آنها، سعید خوش نیت، نشریه پژوهشی- تحلیلی حوزه ساختمان سال2 شماره 3 زمستان 89وبهار90، ص. 15-18

8. Xoşniyyət S.and Əlaii M. Rol of histiric bazaar in change of cities Kultur in Iran // Shiraz Islamic Azad Jurnal, № 1, Shiraz: 2012, s.58-65.

نقش بازارهای تاریخی در شکل گیری هویت شهرهای ایرانی (نمونه موردی بازار تبریز) اولین کنفرانس بین المللی نقش میراث فرهنگی در شکل گیری هویت ملی- شیراز)

# İranın tarixi şəhərlərində tarixi hissələr







# İranın tarixi Şəhərlərində bazarlar







# İranın tarixi Şəhərlərində bazarlar





# Tarixi bazarların mərkəzləşmiş forması





# Tarixi bazarların xəttı forması





# Tarixi bazarlarda Timçələr və cərgələr









# Təbriz bazarının müasir və Qacar dövrünun görünüşü







# Təbriz bazarının qoruğ  zonası və memarlıq və şəhərsalma elementləri





# Təbriz bazarında timçə və səra kompleksı







Təbriz bazarının memarlıq elementlərin konstraksiyası





Təbriz bazarında memarlıq və konstraksiyanın tərkibı və dekor yaradılması





Təbriz bazarında konstraksiyanın təhlili





## САИД ХОШНИЯТ

# ПРОБЛЕМЫ РЕСТАВРАЦИИ И ИСПОЛЬЗОВАНИЯ СРЕДНЕВЕКОВЫХ БАЗАРОВ (НА ПРИМЕРЕ ДРЕВНЕГО БАЗАРА В ГОРОДЕ ТЕБРИЗ)

## РЕЗЮМЕ

**Основная цель исследования-** всесторонний анализ сложившейся планировочной структуры и архитектуры исторических базаров ряда городов Иранской Исламской Республики, на примере древнего базара в городе Тебризисследование факторов, влияющих на их историческую среду и отдельные памятники и разработка рекомендаций для их охраны и современного использования.

**Научная новизнаисследования** состоит в том, что на примере древнего базара в городе Тебриз здесь впервые комплексно изучены исторические базарыпредложенымеры, необходимые для охраны их ценной исторической среды и памятников архитектуры.

Предложенные здесь методы по охране и реставрации исследуемых древних базаров, могут стать теоретической базой для их современного использования и охраны памятников архитектуры.

В первой главе - **«Архитектурные особенности базарных комплексов в исторических городах Ирана»** были исследованы состояние сохранности и проблемы исторических частей городов Ирана, показана градостроительная и архитектурная роль древних базаров в формировании исторических частейи освещены планировочная структура и архитектура пяти исторических базаров в Исламских городах.

Вторая глава- “**Архитектурные особенности базарного комлекса в городе Тебриз»** посвящена исследованию исторического прошлого базара в городе Тебриз и изменениям, проис-

ходящим в его планировочной структуре. Здесь так же рассмотрены архитектурно-пространственная структура и конструктивные особенности базара в Тебризе.

В третьей главе - **«Проблемы реконструкции и современного использования базара в Тебризе»** рассматриваются проблемы охраны исторической градостроительной структуры города Тебриз, проблемы Тебризского базара и факторы нанося-щиеповреждение базару,выдвинуты предложения по консервации, реставрации, реконструкции и использованию базара и его окружающей территории.

SAEID KHOSHNIYYAT

# THE PROBLEMS OF RENOVATION OF THE HISTORICAL BAZAARS IN URBAN FABRIC (CASE STUDY: TABRIZ HISTORIC BAZAAR)

## SUMMARY

**The purpose of the dissertation -** The example of the ancient bazaar in Tabriz comprehensive analysis of the current planning structure and architecture of historic bazaars of several cities of the Islamic Republic of Iran, the study of factors affecting their historical environment and individual monuments and develop recommendations for their conservation and contemporary usage.

**Scientific novelty of research** is that the example of the ancient bazaar in Tabriz for the first time comprehensively studied historical bazaars of Iran and propose measures necessary to protect their environment and valuable historical monuments.

Methods proposed here for the protection and restoration of the study of ancient bazaars, can become a theoretical basis for their current use and protection of monuments.

**In the first chapter -** "The architectural features of the bazaar complex is in the historic cities of Iran" were examined the state of conservation and historic parts of the problem of Iran's cities, shows urban and architectural role in the formation of the ancient souks of historic pieces and covered planning structure and architecture of five historic bazaar in Islamic cities.

**The second chapter -** "The architectural feature of the complex is the bazaar in Tabriz" is devoted to the study of the historical past of the bazaar in Tabriz and the changes occurring in its planning structure. Here also considered architectural and spatial structure and architecture of the bazaar in Tabriz.

**In the third chapter -** "Problems of Reconstruction and the modern use of the bazaar in Tabriz" discusses the problem of

protecting the historic town-planning structure of the city of Tabriz, Tabriz Bazaar problems and factors causing damage to the souk, put forward proposals for conservation, restoration, reconstruction and use of the bazaar and its surrounding area.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ АРХИТЕКТУРНО-СТРОИТЕЛЬНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**САИД САМАД ОГЛУ ХОШНИЯТ**

# ПРОБЛЕМЫ РЕСТАВРАЦИИ И ИСПОЛЬЗОВАНИЯ СРЕДНЕВЕКОВЫХ БАЗАРОВ (НА ПРИМЕРЕ ДРЕВНЕГО БАЗАРА В ГОРОДЕ ТЕБРИЗ)

**Специальность 6401.01** - «Теория и и история архитектуры, реставрация и реконструкция памятников»

# АВТОРЕФЕРАТ

диссертации на соискание учёной степени
доктора философии по архитектуре

**БАКУ – 2014**